**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# MÜASIR AZƏRBAYCAN CƏMİYYƏTİNDƏ VALİDEYN HİMAYƏSİNDƏN MƏHRUM OLMUŞ UŞAQLARLA BAĞLI SOSİAL SİYASƏTİN ƏSAS İSTİQAMƏTLƏRİ

İxtisas: 6303.01 – Ümumi sosiologiya

Elm sahəsi: Sosiologiya

İddiaçı: **Natəvan Xeyrulla qızı Nəcəfova**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı - 2025**

Dissertasiya işi Bakı Dövlət Universitetinin "Sosial elmlər və psixologiya" fakültəsinin "Sosiologiya" kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbərlər: Fəlsəfə elmləri doktoru, professor
**İzzət Əşrəf oğlu Rüstəmov**

Fəlsəfə üzrə fəlsəfə doktoru, dosent
**Fazil Qulammirzə oğlu Vahidov**

Rəsmi opponentlər: Fəlsəfə elmləri doktoru, professor
**Əyyub Sevdim oğlu Kərimov**

Sosiologiya üzrə fəlsəfə doktoru, dosent
**Telman Əlimusa oğlu Niftəliyev**

Sosiologiya üzrə fəlsəfə doktoru,
**Vüsal Elşad oğlu Abdullayev**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Bakı Dövlət Universiteti Sosial elmlər və psixologiya fakültəsinin nəzdində fəaliyyət göstərən BFD 4.25 Birdəfəlik Dissertasiya şurası

Dissertasiya şurasının sədri:
Sosiologiya elmləri doktoru, professor
__________ **Hüseyn Tapdıq oğlu Qaraşov**

Dissertasiya şurasının elmi katibi:
Sosiologiya üzrə fəlsəfə doktoru,
__________ dosent **Yaqut Nadir qızı Əliyeva**

Elmi seminarın sədri:
Sosiologiya elmləri doktoru, dosent
__________ **Səadət Davud qızı Məmmədova**

"23" 04 2025

# GİRİŞ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Azərbaycan Respublikası hər bir vətəndaşın və bütövlükdə Azərbaycan xalqının əmin-amanlıq şəraitində, güvənli maddi təminat və sosial rifah içərisində yaşamağını istəyir və bu istəyi reallığa çevirmək üçün adekvat proqramlar qəbul edilmiş, qərarlar, fərman və sərəncamlar verilmiş, qanunlar imzalanmışdır.

Əhalinin həssas qruplarına (uşaqlara, yaşlılara, əlillərə, imkansızlara və b.) xüsusi diqqət və qayğı göstərilməsi, onların sosial müdafiəsinin həyata keçirilməsi sosial siyasətin çox mühüm tərkib hissəsi və inkişaf istiqamətlərindən biridir. Uşaqların qorunması, sağlam böyüməsi və cəmiyyətin yetkin üzvü kimi formalaşması çoxaspektli fəaliyyət tələb edir, çünki burada söhbət ümumilikdə gələcək vətəndaşın və şəxsiyyətin sosiallaşmasından gedir. Uşaqların fiziki və əqli cəhətdən tam formalaşmaması, valideynlərindən, ailənin yaşlı üzvlərindən, cəmiyyətin digər üzvlərindən asılı olması, yetərli səviyyədə fəaliyyət göstərə bilməməsi, əməkqabiliyyətli yaşda olmaması, mənfi təsirlərə daha həssas münasibət bəsləməsi və s. onları paritet istiqamətli sosial siyasətdə xüsusi əhali kateqoriyası kimi səciyyələndirməyə imkan verir.

Valideyn himayəsindən məhrum olmuş uşaqlar problemi hər zaman keçid və kritik dövrlərdə, cəmiyyətin müharibə, münaqişə, təbii kataklizmlər ilə üzləşdiyi vaxtlarda aktual olmuşdur, çünki bütün bunlardan cəmiyyətin ən həssas təbəqələri, o cümlədən uşaqlar daha çox əziyyət çəkirlər.

Hazırda cəmiyyətin sosial təbəqələşməsi prosesində yeni meyillərin yaranması, əhalinin ayrı-ayrı kateqoriyalarının əvvəllər mövcud olan statusunun dəyişilməsi, həssas qrupların müdafiəsinin güclənməsi ölkəmizdə xüsusi məna və aktuallıq kəsb edir. Lakin etiraf etməliyik ki, bütövlükdə ailə institutunun fəaliyyətində kritik, böhranlı məqamların çoxalması, uğursuz ailələr probleminin kəskinləşməsi, yetkinlik yaşına çatmayan uşaqlarla bağlı aparılan işin kifayət qədər aktiv və təsirli olmaması, ailədən kənarda - uşaq evləri, internat məktəbləri kimi yerlərdə tərbiyə alan, himayə və qayğıdan

xeyli dərəcədə məhrum olmuş uşaqların sayının artmasına səbəb olmuşdur.

Uşaqları müdafiə sisteminin tədqiqinin aktuallığı həm də ölkəmizdə yetim qalmış və valideyn himayəsindən məhrum olmuş uşaqların sayının nisbətən çox olması ilə izah edilə belər. Belə ki, statistik göstəricilərə görə Azərbaycanda 2023-cü ildə internat müəssisələrində bu kateqoriyadan olan 1363 uşaq (2022-cü ildə bu rəqəm 737 olmuşdu)[1] tərbiyə alırdı. Bu uşaqların üçdə iki hissəsi valideynləri sağ olduqları halda valideyn himayəsindən məhrumdurlar. Bütün dünyada olduğu kimi, Azərbaycanda da belə hesab olunur ki, uşaq evləri qapalı tərbiyə sistemidir; burada uşaqlar valideyn qayğısından məhrumdurlar, bu müəssisələr uşaqların tam yetərli səviyyədə inkişafı üçün əlverişsizdir, bəzi hallarda isə hətta onların şəxsiyyət kimi formalaşması üçün yararsızdır. Bu uşaqlara sosial yardım üçün sosial işçilərin, psixoloqların, sosioloqların, tərbiyəçilərin və müvafiq işləri icra edən hər bir kəsin işinin birləşdirilməsi, sıx inteqrasiyası olduqca vacibdir.

Valideyn himayəsindən məhrum olmuş uşaqların mövcud olması ilk növbədə ailə institutunun və sosiumun uşağın şəxsiyyət kimi formalaşmasına, sosial, mənəvi, intellektual və fiziki aspektlərdə fərdi inkişafına yetərli səviyyədə təsir göstərə bilməməsinin təzahürüdür.

Uşaqlara münasibətdə siyasətin aktorları arasında dövlət aparıcı rola malik olsa da burada yerli idarəetmə orqanlarının, fövqəlmilli institutların (beynəlxalq uşaq təşkilatlarının), ictimai hərəkatlar və birliklərin rolu da mühüm əhəmiyyətə malikdir. Onlar öz fəaliyyətlərində bir-birini tamamlayır və bu sahədə işlərin yaxşılaşdırılması istiqamətində birgə addımlar atırlar.

Azərbaycan Respublikasının dövlət müəssisələri lazımi qayğını təmin etmək üçün çox iş görürlər, lakin ev istisini və qayğıkeş valideynlərin nəvazişini heç bir şey əvəz edə bilməz. Bu gün başlıca məqsəd uşaqların mümkün dərəcədə öz bioloji

[1] Dövlət Statistika Komitəsinin electron portalı. https://www.stat.gov.az

valideynləri ilə bir yerdə qalmasını təmin etməkdir. Bu mümkün olmadığı təqdirdə, himayədar ailə qayğısı və övladlığagötürmə optimal alternativlər kimi nəzərdən keçirilir. Lakin bəzi hallarda uşaqlar ağır formada əqli və fiziki əlillikdən əziyyət çəkirlər və onların bir çox xüsusi xidmətlərə ehtiyacları vardır və belə olduğu halda ailəyönümlü mühiti təmin edən, kiçik sayda uşaqları əhatə edən evlərin yaradılması ən münasib variantdır.

Bu kateqoriyadan olan uşaqlara münasibətdə öz vəzifələrini, funksiyalarını yerinə yetirməyən yalnız valideynləri deyildir, bir sıra hallarda müxtəlif səbəblərdən cəmiyyət də bu kateqoriyadan olan uşaqlara kifayət qədər diqqət ayırmır. Bu baxımdan dünyanın müxtəlif ölkələrində fərqli məqamlar müşahidə olunur. Müstəqillik şəraitində respublikamızda ümumiyyətlə həssas qruplara, o cümlədən valideyn himayəsindən məhrum olmuş uşaqlara münasibətdə işlənib hazırlanan və reallaşdırılan sosial siyasət öz töhfələrini getdikcə artırır. İndi dünya təcrübəsi əvvəlki dövrlə müqayisədə daha yaxşı öyrənilir, mövcud imkanlar daha ciddi şəkildə götür-qoy edilir, optimal yollar axtarışı güclənir.

Ermənistanın Azərbaycana məxsus bir sıra əraziləri işğal etməsi, həmin ərazilərdə dəhşəti vəhşiliklər törətməsi, ATƏT-in Minsk qrupunun fəaliyyətsizliyi, BMT-nin məlum 4 qətnaməsinin yerinə yetirilməməsi və təxminən 30 illik bir müddətdə işğal zonasının əsil xarabalığa çevrilməsi və s. – bütün bunlar həssas qruplara, o cümlədən valideyn himayəsindən məhrum olmuş uşaqlara münasibətdə gərginlik məqamlarının artmasını şərtləndirirdi. Azərbaycanın 44 günlük Vətən müharibəsi (27 sentyabr – 9 noyabr 2020-ci il) işğal altında olan ərazilərinin azad edilməsi, suveren hüquqlarımızın bərpası ilə nəticələndi, ölkəmizin inkişafı üçün yeni imkanlar açıldı. Hazırda bu imkanların hərtərəfli gerçəkləşdirilməsi istiqamətində fəal quruculuq işləri aparılır, əsaslı sosial proqramlar işlənib hazırlanır və reallaşdırılır. Lakin bu sahədə müəyyən problemlər hələ də mövcuddur. Ona görə də Azərbaycanda kimsəsiz və valideyn himayəsindən məhrum olmuş uşaqlara himayədarlıq istiqamətində aparılan işlər tədqiq olunmalı və bu sahədə inkişafa kömək edən əsas yollar müəyyən edilməlidir.

Prezident İlham Əliyevin imzaladığı “Azərbaycan Respublikasının uşaqlara dair 2020-2030-cu illər üçün Strategiyası” uşaqlara dövlət qayğısının bariz nümunəsidir. Bu sənəd uşaqlara humanist, əsaslı və elmi münasibəti yaxşı nümayiş etdirir, ölkəmizin yeni şəraitdə gələcək perspektivlər baxımından imkanlarının ciddi əsaslara söykənməsi ilə bağlı mühüm məqamları əks etdirməklə obyektiv təkliflərə geniş meydan açır.

Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsinin təmin edilməsi problemi öz mahiyyətinə görə müntəzəm araşdırma, təhlil tələb edir; vəziyyət nə qədər aydın olarsa, nə qədər dərindən işlənərsə, atılacaq addımlar, görüləcək işlər də bir o qədər əsaslı və təsiredici olar.

Beləliklə, yaranan yeni sosial-siyasi, hərbi, iqtisadi, geostrateji reallıqlar müasir Azərbaycan cəmiyyətində valideyn himayəsindən məhrum olmuş uşaqlara aid sosial siyasəti daha uzun müddət üçün, daha obyektiv şəkildə planlaşdırmaq və həyata keçirmək imkanlarını artırır və məhz bu nöqteyi-nəzərdən tədqiqat problemimiz xüsusi aktuallıq kəsb edir.

Əhalinin rifahı məsələsinə qədim dövrlərdən müxtəlif alimlər (məs., Platon, Aristotel) müraciət etmişlər. Onlar belə bir fikri qəbul edirdilər ki, dövlətin vəzifəsi öz əhalisinin qayğısına qalmaqdan ibarətdir. Məsələn, Aristotel “yaxşı həyat” anlayışının nə olmasına cavab axtarmağa çalışmış və belə bir nəticəyə gəmişdi ki, insan yalnız özünün bütün bacarıq və qabiliyyətlərindən istifadə edərək xoşbəxt ola bilər. Yeni dövrün filosofları T. Hobbs, İ. Kant, G. Hegel və b. sosial ədalət və dövlətin öz vətəndaşları qarşısında vəzifələri məsələlərini müzakirə etmişlər. XIX əsrin sonu – XX əsrin birinci yarısında yaşamış alman sosioloqu Verner Zombart sosial siyasətin cəmiyyət üçün mühüm əhəmiyyətindən bəhs edirdi[2]. XX əsr

---

[2] Зомбарт, В. Идеалы социальной политики: Сборник научных трудов / В.Зомбарт ; пер. с нем. П. Ф. Теплова, Э. М. Зиновьевой. – Москва; Берлин: Директ-Медиа, - 2016. – 307 с.

görkəmli alman filosofu Otfrid Heffe[3] cəmiyyətdə hüquqi və ədalətli dövlətin bərqərar olmasını insanların dinc, yanaşı yaşamasının əsası sayırdı. Müasir dövrün görkəmli filosoflarından olan Amartya Sen insanın cəmiyyətdə normal yaşamaq azadlığını mütləq azadlıq kimi qiymətləndirir. Len Doyal və Ayan Qoq (1991) göstərirdilər ki, yaxşı yaşamaq üçün fiziki cəhətdən sağlam olmaq kifayət deyildir, insan olaraq biz həyatımız üçün seçim imkanlarına da malik olmalıyıq.[4]

Əhalisi müasir humanist dəyərləri bölüşdürən dövlət sosial sayıla bilər. Ədalətli cəmiyyət quruculuğu aşağıdakı prioritetləri əks etdirir: - sosial müdafiənin ünvanlı sisteminin inkişafı; əlillərin cəmiyyətə inteqrasiyası; uşaq fəqirliyinin xəbərdarlığı və məhdudlaşdırılması; pensiya sisteminin təkmilləşdirilməsi; keyfiyyətli təhsil və səhiyyə xidmətinə giriş.[5]

Elmi ədəbiyyatda valideyn himayəsindən məhrum olmuş uşaqlarla bağlı sosial siyasət bir neçə paradiqmadan izah edilir. Bunlardan birincisinə Qərb sosioloqları İ.Goffman, C. Ennyu[6] və b. tərəfindən inkişaf etdirilən sosial nəzarət nəzəriyyəsi aid edilə bilər. Belə ki, uşaqlarla bağlı sosial nəzarət onların yaşaması və təhsil alması üçün nəzərdə tutulmuş xüsusi müəssisələrin ("total institutların" (Goffman)) yaradılmasında özünü göstərir[7]. Valideyn himayəsindən məhrum uşaqlarla bağlı sosial siyasətə digər yanaşma ailə siyasətinin daha geniş kontekstində - familializm nəzəriyyəsi mövqeyindən izah edilə bilər. Bu yanaşmada əhalinin sosial təminatı

---

[3] Хеффе, О.Политика. Право. Справедливость. Основоположения критической философии права и государства / Перев. с нем. Вл.С. Малахова при участии Е.В. Малаховой.— М.: Издательство «Гнозис», Редакционно-издательская группа «Логос», 1994. — 328 с.

[4] Həsənov, R. Sosial siyasət /R.Həsənov. – Bakı: AVROPA,- 2016. - 310 s.

[5] Şəfiyev, Ü. Azərbaycanda sosial iş və sosial siyasət / Ü.Şəfiyev. - Bakı: Elm və təhsil, - 2018. – 690s.

[6] Ennew J. Prisoners of Childhood // In: Studies in Modern Childhood. Society, Agency, Culture. Ed.by Jens Qwortrup. - Palgrave Macmillan, -2005,- p. 128–146.

[7] Goffman E. Asylums. Essays on the social situation of mental patients and other inmates. - New York: The Anchor Books Edition, - 1961.

sistemində ailənin  yeri və rolu təhlil olunur (S.Loytner[8], C.Boulbi[9]). Nəhayət, üçüncü yanaşmaya əsasən dövlətin valideyn himayəsindən məhrum uşaqlarla bağlı siyasəti sosial siyasətin ayrıca bir istiqaməti kimi təhlil olunur ki, bura biz L.Foksu və b. aid edə bilərik.

Bunlardan başqa Rusiya tədqiqatçılarından V.P.Avdeyeva və M.M.Rusakova[10] valideyn himayəsindən məhrum olmuş uşaqlarla bağlı dövlətin sosial siyasətinin nəzəri əsaslarını araşdırmışlar. Himayədar ailə, foster ailə, valideynsiz uşaqlar problemi müvafiq olaraq A.V. Karuşeva və Y.V.Tremaskina[11],  O.V.Besçyotnova[12] və A.İ.Lixanov[13], uşaqların sosial müdafiəsi məsələsi N.V.Malyarova və M.İ.Nesmeyanova[14] tərəfindən tədqiq edilmişdir.

---

[8] Leitner, S. Varieties of Familialism: Developing Care Policies in Conservative Welfare States // End of Welfare as We Know It? Continuity and Change in Western Welfare State Settings and Practices / Sandermann Ph. Settings and Practices Opladen: Verlag Barbara Budrich, -2006,  p. 37–51.

[9] Джон Боулби. Теория привязанности // http://ruka-na-pulse.ru/advice/articles/detail.php?ID=909

[10] Авдеева В.П., Русакова М.М. Семья и общество. Теоретические основания и результаты исследования социальной политики в отношении детей-сирот и детей, оставшихся без попечения родителей, в постсоветских странах. // https://cyberleninka.ru/article/n/teoreticheskie-osnovaniya-i-rezultaty-issledovaniya-sotsialnoy-politiki-v-otnoshenii-detey-sirot-i-detey-ostavshihsya-bez-popecheniya

[11] Карушева А.В., Тремаскина Е.В. Дети «группы риска» как особая социальная группа. - Молодой ученый. - 2016. №3, - с.1002-1004. https://moluch.ru/authors/46214/

[12] Бессчетнова, О.В. Приемная семья: социально-демографический анализ / О.В.Бессчетнова. - Саратов: Научная книга, - 2008. -288 с. Бессчетнова, О.В. Фостерная семья как способ устройства детей, оставшихся без попечения родителей, в Соединенных Штатах Америки// - Вестник ТПГУ, - 2009, №5, - с.40-44.

[13] Лиханов, А.И. Дети без родителей / А.И.Лиханов. – Москва: Просвещение, - 2010. – 324 с.

[14] Малярова, Н.В., Социальная защита детства: концептуальный подход. Социологические исследования/ Н.В.Малярова, М.И.Несмеянова // 1998. №4, с.79-83.

Uşaq probleminin müxtəlif aspektlərinə dair tədqiqatlar həmçinin bir sıra Azərbaycan müəlliflri tərəfindən aparılmışdır. Belə ki, Y.N.Əliyeva[15] uşaqların şəxsiyyətinin formalaşması məsələlərini, S.M.Məcidova[16] küçə uşaqlarının sosioloji və psixoloji vəziyyətini, S.A.Allahyarova və E.A.Piriyeva[17] və H.M.Əhmədova yeniyetmələr arasında asosial davranışın təzahürü məsələlərini tədqiq etmişlər.

Qeyd olunan tədqiqatların bütün üstünlüklərinə baxmayaraq, müasir Azərbaycanda valideyn himayəsindən məhrum olmuş uşaqlarla bağlı sosial siyasətin sosioloji aspektlərinin araşdırılması vacib məsələ olaraq qalır. Bu mühüm problem elmi ədəbiyyatda kifayət qədər araşdırılmamışdır.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqat işinin obyektini valideyn himayəsindən məhrum olmuş uşaqlar problemi, predmetini isə müasır Azərbaycan cəmiyyətində həmin əhali qrupu ilə bağlı sosial siyasətin əsas istiqamətlərinin sosioloji müstəvidə araşdırılması təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiya işinin əsas məqsədi cəmiyyətimizdə valideyn himayəsindən məhrum olmuş uşaqlarla bağlı aparılan sosial siyasətin əsas istiqamətlərinin

---

[15] Алиева, Я. Особенности исследования беспризорных детей в современном обществе // Самара: Самарский научный вестник, - 2013, №2(3), -с.7-9; Алиева, Я. О некоторых проблемах исследования беспризорных детей в азербайджанском обществе //Тольятти: Вектор науки Тольяттинского государственного университета, - 2012, №4 (11), - с.20-22.; Алиева, Я.Н., Социологические, социально-психологические и правовые аспекты изучения подростковой преступности (на материалах исследования по Азербайджану/ Я.Н.Алиева, С.Н.Алиева, Э.Агалар. // Научный журнал «VIRTUS», - Монреаль: -2017 (№ 14), - с.35-45.

[16] Меджидова, С.М.. Уличные дети: социологический и психологический портрет / С.М.Меджидова, - Баку: Ziya-Нурлан, -2003, -180с.

[17] Аллахярова С.А., Пириева Э.А. Факторы отклоняющегося поведения подростков // Отклоняющееся поведение человека в современном мире: проблемы и решения. Материалы II Международной заочной научно-практической конференции, - Владимир: -12 мая, 2011, - с.60-63.

sosioloji tədqiqi və bunların Azərbaycan şəraitində refleksiyasının öyrənilməsindən ibarətdir.

Bu məqsədin əldə olunması üçün aşağıdakı vəzifələr qarşıya qoyulmuşdur:

- Azərbaycanda uşaqları müdafiə mexanizminin bütöv sistem kimi öyrənilməsi və bu yöndə valideyn himayəsindən məhrum olmuş uşaqlarla bağlı Azərbaycan dövlətinin sosial siyasətində əsas istiqamətlərin müəyyənləşdirilməsi;
- uşaq hüquqlarını özündə əks etdirən qanunvericilik aktlarının tədqiq olunması; qəyyumluq, himayə və övladlığa götürmə prosedurlarının tədqiqi;
- uşaqların dövlət müəssisələrindən ailələrə verilməsi (de-institusionalizasiya) və alternativ qayğı proqramının real vəziyyətinin təhlili;
- kimsəsiz uşaqların müdafiəsində QHT-lərin fəaliyyəti və müxtəlif layihələrin reallaşdırılmasının tədqiqi;
- valideyn himayəsindən məhrum olmuş uşaqların cəmiyyətin fəal üzvləri kimi formalaşmasının empirik sosioloji tədqiqatlar kontekstində öyrənilməsi.

**Tədqiqat metodları**. Müasir Azərbaycanda valideyn himayəsindən məhrum olmuş uşaqlarla bağlı sosial siyasətin tədqiqi sosiologiyada əsas metodoloji yanaşmalardan sayılan struktur funksionalizmə əsaslanır. Tədqiqatın aparıcı prinsiplərini sistemlilik, hadisələr arasında qarşılıqlı əlaqə, inkişafda ziddiyyətlərin və ardıcıllığın araşdırılması, ümumiləşdirmə metodu təşkil edir. Dissertasiyanın yazılmasında uşaqlarla bağlı müxtəlif beynəlxalq sənəd və materiallardan, ölkəmizdə bu sahədə qəbul edilmiş qanun və proqramlardan, xarici və yerli alimlərinin apardığı tədqiqatlardan nəzəri-metodoloji əsas kimi istifadə olunmuşdur. Nəzəri-metodoloji zəminin formalaşmasında ümummilli liderimiz Heydər Əliyevin və dövlətimizin başçısı İlham Əliyevin məruzə, çıxış və müsahibələrində öz əksini tapan müddəalara ciddi diqqət yetirilmişdir. Müəllif tərəfindən şəxsən özünün apardığı anket sorğusu, ekspert analizi və statistik təhlil metodlarından, eləcə də digər subyektlər tərəfindən aparılmış sorğu materiallarından

(müsahibə və anket sorğusu formalarında) geniş istifadə olunmuşdur. Tədqiqat işinin mənbəşünaslıq əsasını valideyn himayəsindən məhrum olmuş uşaqlarla bağlı sosial siyasətə dair klassik və müasir sosioloji, psixoloji, iqtisadi, fəlsəfi, pedaqoji ədəbiyyat təşkil edir.

**Müdafiəyə çıxarılan əsas müddəalar**. Dissertasiyada müdafiəyə çıxarılan əsas müddəalar aşağıdakılardır:

1. Valideyn himayəsindən məhrum olmuş uşaqlar cəmiyyətimizin ən həssas qruplarından biridir. Onların maddi təminatı, sağlamlığının qorunması, təhsili, tərbiyəsi, bir sözlə, layiqli, fəal vətəndaşlar kimi formalaşması və fəaliyyət göstərməsi dövlətin işləyib hazırladığı və reallaşdırdığı uşaq siyasətinin prioritet istiqamətlərindən biridir.
2. Valideyn himayəsindən məhrum uşaqlarla bağlı sosial siyasət sosial nəzarət və familializm nəzəriyyələri, eləcə də sosial siyasətin ayrıca bir istiqaməti kimi təhlil oluna bilər ki, dissertasiyada problemin tədqiqində əsas üstünlük sonuncuya verilmişdir.
3. Ölkəmizdə əhalinin həssas qruplarının ümumi xarakteristikasının araşdırılması göstərir ki, bir sıra hallarda həssaslığın güclənməsini, dərinləşməsini artıran məqamlar real vəziyyəti xeyli dərəcədə mürəkkəbləşdirir. Buna baxmayaraq, valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi baxımından onların övladlığa, qəyyumluğa, himayəçiyə, digər ailəyə verilməsi daha üstün vasitələr qismində təqdim edilə bilər, bunlar mümkün olmadıqda isə uşaqların müvafiq müəssisələrdə yerləşdirilməsi qaydasından yararlanma məqsədəuyğundur.
4. Həm valideyn himayəsindən məhrum olmuş uşaqların sayı, həm uşağı tərbiyə üçün götürməyin ölkədə ənənəvi olmaması və s. məsələlər, hesab edirik ki, hələ uzun illər uşaq internat müəssisələrinin mövcud olmasını şərtləndirəcəkdir.
5. Hər bir tərbiyə və himayə formasının üstünlüyü və mövcud olmaq reallığı vardır. Lakin burada ən vacib cəhət həmin tərbiyə və himayə formalarına ciddi dövlət nəzarətinin olması və bu sahədəki fəaliyyətin, eləcədə dövlət, valideyin himayəsindən məhrum olmuş uşaq və müəssisə (himayədar ailə, qəyyum, himayəçi və s.) arasındakı münasibətlərin hüquqi cəhətdən dəqiq, mükəmməl

tənzimlənməsidir.

6. Qərbdə və Şərqi Avropada valideynlərini itirmiş uşaqların yeni ailələrdə adaptasiyası məsələsində müxtəlif dini qurumlar və təşkilatların böyük rolu vardır. Ailələrə yardım edən, kilsələrdə fəaliyyət göstərən mərkəzlər gələcəkdə övladlığa uşaq götürmək istəyən valideynlərə xüsusi diqqət göstərirlər. Bu nöqteyi-nəzərdən ölkəmizdə də dini qurumlar və təşkilatların bu işdə yaxından iştirakı məqbul sayıla bilər.

7. Küçə həyatına məruz qalmış uşaqlar üçün alternativ xidmətlər kimi reabilitasiya mərkəzləri yaradılmalıdır. Mərkəzlər, iyerarxiya və nüfuzun hakim olduğu yerlər deyil, uşaqların özlərini rahat hiss etdikləri, dinclik duyduqları, bir-birləri ilə və personalla danışa biləcəkləri yer olmalıdır.

8. 44 günlük Vətən müharibəsində Azərbaycan xalqının qələbəsi, onun yaratdığı reallıqlar əhalinin həssas qruplarına, o cümlədən valideyn himayəsindən məhrum olmuş uşaqlara münasibətdə sosial siyasəti təkmilləşdirmək və optimallaşdırmaq üçün yaxşı zəmin yaradır. Bu zəmin möhkəmləndikcə onun stimullaşdırıcı rolu daha da artacaq və daha məzmunlu olacaqdır.

**Tədqiqatın elmi yeniliyi** problemin aktuallığı və qarşıya qoyulmuş məqsəd və vəzifələrlə bağlı şəkildə müəyyənləşdirilmişdir. Dissertasiyanın elmi yeniliyi öz ifadəsini konkret olaraq aşağıdakılarda tapmışdır:

– valideyn himayəsindən məhrum olmuş uşaqların uşaq müəssisələrində yaşayışı və ya bu müəssisələrdən ailələrə verilməsi, tərbiyəsi, habelə müəssisə həyatını başa vurduqdan sonra cəmiyyətə inteqrasiyası məsələləri araşdırılmış, nəticələr çıxarılmış, əməli tövsiyələr irəli sürülmüşdür;

– respublikada fəaliyyət göstərən müvafiq dövlət qurumlarının, uşaq müəssisələrinin, habelə QHT-lərin fəaliyyəti müxtəlif tədqiqatlara və istifadə etdiyimiz tədqiqat metodlarına əsaslanaraq qiymətləndirilmiş, problemin sosial, iqtisadi, hüquqi və d. aspektləri ilə yanaşı təşkilati-metodoloji tərəflərinin də nəzərə alınmasının əhəmiyyəti və bu istiqamətdə əsaslı islahatların zəruriliyi əsaslandırılmışdır;

– geniş faktoloji təhlillərə istinadən uşaq müəssisələrində mövcud vəziyyətin tədqiqi uşaq tərbiyə sisteminin bu həlqəsinin müasir tələblərə, ilk növbədə humanizm ideallarına adekvatlılığı milli-mənəvi dəyərlərimizlə bağlı şəkildə araşdırılmışdır;

– valideyn himayəsindən məhrum olmuş uşaqlarla bağlı reallaşdırılan bir sıra layihələrin (günərzi mərkəzləri, ailə tipli kiçik qrup evləri, sos-uşaq kəndləri və s.), eləcə də respublikada müxtəlif təşkilatlar və özümüz tərəfindən aparılmış empirik sosioloji tədqiqatların nəticələri ümumiləşdirilmiş, konkret təkliflər irəli sürülmüşdür.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqatın materialları və müddəaları ali məktəblərin xüsusilə humanitar fakültələrində ümumi sosiologiya, sosial iş, psixologiya, sosial fəlsəfə, pedaqogika və s. üzrə mühazirə kurslarının tədrisində, tədris proqramlarının tərtibində, metodik vəsaitlərin işlənməsində, dərslik və dərs vəsaitlərinin yazılmasında, ixtisas kurslarının və referatların hazırlanmasında; bu mövzu ilə bağlı araşdırma aparan bakalavr, magistr, doktorant və elmi işçilər tərəfindən elmi işlərdə etibarlı elmi ədəbiyyat kimi istifadə edilə bilər.

Dissertasiyadan həmçinin dünyada və ölkədə gedən sosial və iqtisadi dəyişikliklərin öyrənilməsində, dövlət və hakimiyyət strukturlarının işində, sosial-iqtisadi inkişaf, əmək bazarı, məşğulluq, və müvafiq təhsil islahatlarına dair qanunvericilik aktlarının hazırlanmasında, QHT-lərin fəaliyyətində və KİV-də məlumatlandırma mənbəyi kimi də istifadə edilə bilər.

**Aprobasiyası və tətbiqi**. Dissertasiya işinin strukturu və həcmi tədqiqatın məqsəd və vəzifələrinə uyğundur. Dissertasiya giriş, üç fəsil, doqquz yarımfəsil, nəticə, istifadə edilmiş ədəbiyyat siyahısı və əlavədən ibarətdir. Tədqiqatın məzmunu və əsas müddəaları məqalələr şəklində Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının norma və tələblərinə uyğun yerli və xarici jurnallarda, eləcə də respublika və beynəlxalq səviyyəli elmi konfransların materiallarında öz əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı**: Dissertasiya işi Bakı Dövlət Universitetinin Sosiologiya kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi**: Dissertasiyanın ümumi həcmi - 205770 işarə boşluqlarsız, 234114 işarə boşluqlarla, Giriş – s.3-11, 19796 (22466), I Fəsil - s.12-56, 79882 (90803), II Fəsil – s.57-85, 53950 (61332), III Fəsil – s.86-121, 47858 (54639), Nəticə - s.122-124, 4284 (4877), Əlavə - 137-142, 4477 (4985).

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **"Giriş"** hissəsində mövzunun aktuallığı və işlənmə dərəcəsi, tədqiqatın məqsəd və vəzifələri, obyekti və predmeti, elmi yeniliyi, nəzəri-metodoloji əsasları və empirik bazası, elmi-nəzəri və praktiki əhəmiyyəti öyrənilmişdir.

**"Valideyn himayəsindən məhrum olmuş uşaqlar sosial siyasətin obyekti kimi"** adlanan birinci fəsil iki paraqrafdan ibarətdir və nəzəri xarakter daşıyır. Müəllif problemin sosioloji öyrənilməsinin nəzəri-metodoloji aspektlərini araşdırır. Bu bölmədə iddiaçı sosial siyasət anlayışının mahiyyətini, məzmununu və spesifik xüsusiyyətlərini aydınlaşdırır, valideyn himayəsindən məhrum olmuş uşaqlara dair elmi ədəbiyyatdakı əsas yanaşmaları ətraflı nəzərdən keçirir və valideyn himayəsindən məhrum olmuş uşaqlarla bağlı sosial siyasət sahəsində beynəlxalq təcrübə araşdırılır.

**"Sosial siyasətin mahiyyəti və məzmunu"** adlanan birinci paraqrafda müəllif bu müddəadan çıxış edir: cəmiyyətin sabit, davamlı inkişafında, öz imkanlarını daha dolğun reallaşdırmasında aktiv sosial siyasətin mühüm rolu ümumən etiraf olunur. Təsadüfi deyildir ki, müxtəlif problemlərin təhlili zamanı sosial siyasət məsələlərinə tez-tez müraciət edilir. Sosial qütbləşmənin qarşısının alınması, cəmiyyəti təşkil edən qrupların, birliklərin inkişafı, insanların sosiallaşması, ictimai strukturun bütün elementlərinin,

stratlarının destruktiv proseslərdən qorunması, sosial təminatın əsaslı, nizamlı olması və s. bu qəbildən olan məsələlər sırasındadır[18].

Bir cəhəti də unutmaq olmaz: cəmiyyətin inkişafının iqtisadi, ekoloji və demoqrafik amillərini nəzərə almaqla meydana çıxan sosial proqramların elmi cəhətdən əsaslandırılması sosial sferaya aid olan statistikanın və ictimai elmlər kompleksinin bütün elmi fənlərinin inkişafını gücləndirməyi tələb edir[19]. Burada politologiya, sosiologiya və onların inteqrativ fənləri (məsələn, siyasi sosiologiya) xüsusi rol oynayır.

Sosial siyasətin mahiyyəti birmənalı müəyyənləşdirilməyibdir. Bəzi tədqiqatçılar onun geniş və dar mənalarına diqqət yetirirlər. Bütövlükdə sosial siyasət miqyaslı texnologiya, dövlət və cəmiyyətin sosial problemlərinin həlli instrumenti kimi başa düşülür və qeyd olunur ki, buraya sosial proqramların həyata keçirilməsinə, əhalinin gəlir və həyat səviyyəsinin yaxşılaşdırılmasına, məşğulluğun təmin edilməsinə, habelə sosial sfera sahələrinin dəstəklənməsinə və konfliktlərin qarşısının alınmasına yönəlmiş tədbirlər sistemi daxildir.

Geniş mənada sosial siyasət tədbirlər sistemidir. Onun *"əsas məqsədi ümumilikdə insan, onun rifahı, sosial müdafiəsi, sosial inkişafı, həyat təminatı, sosial təhlükəsizliyi olan cəmiyyətin sosial qrupları və sosial təbəqələri arasındakı qarşılıqlı münasibətlər və qarşılıqlı təsir sistemini"* nizama salmaqdır. Sözün dar mənasında isə sosial siyasət *"əhalinin həyatının təminatına yönəlmiş konkret tədbirlər məcmusudur. Bu tədbirlərin kim tərəfindən həyata keçirilməsindən, onların təşəbbüsçüsünün (subyektinin) kimliyindən asılı olaraq, sosial siyasətin dövlət, regional, korporativ və digər növlərini ayırırlar"* [20].

---

18 Ахинов, Г.А. Социальная политика. Теория и практика /Г.А.Ахинов, С.В.Калашников, - Москва: ЗАО Издательство Экономика, - 2008, - 312 с.

19 Məmmədova, S. Azərbaycanda sosial dövlət: inkişafı, perspektivləri / S.Məmmədova. - Bakı:AVROPA, - 2017, - 232 s.

20 Həsənov, R. Sosial siyasət /R.Həsənov, – Bakı: AVROPA,- 2016. - 310 s.

**“Valideyn himayəsindən məhrum olmuş uşaqlar əhalinin həssas qrupu kimi”** adlanan ikinci paraqrafda göstərilir ki, hazırda Azərbaycan Respublikası demokratik, hüquqi, dünyəvi cəmiyyət quruculuğu istiqamətində uğurla irəliləyir və mövcud çətinliklərə baxmayaraq, öz nailiyyətlərini getdikcə artırır. Bu cəmiyyətin əsas atributlarından biri məhz insan hüquq və azadlıqlarının aliliyinin təmin olunması, onların reallaşdırılması üçün dövlət tərəfindən hərtərəfli şəraitin yaradılmasıdır. Təsadüfi deyildir ki, ölkəmiz cəmiyyətin gələcək inkişafına kömək olacaq optimal əməkdaşlıq formalarını seçir və həyata keçirir. Hüquq və azadlıqların qorunması elə cəmiyyətin uşaqların hüquq və azadlıqlarını tanıması, qoruması və hörmət etməsindən başlayır[21].

Risk qrupuna aid olan uşaqlar müxtəlif səbəblərdən digərlərinə nisbətən cəmiyyətin və yeniyetmələrin dezadaptasiyasına səbəb olan kriminal elementlərin mənfi təsirinə məruz qalırlar. Bu uşaqlar ətraf mühitin təsirlərinə həssaslığı ilə seçillirlər. Şəxsi resursların kifayət qədər olmaması səbəbindən xaricdən gələn neqativ təsirlərə məruz qalaraq, onları əhatə edən mühitdən asılı olurlar. Onları əhatə edən insanların hiss və münasibətlərinin təhlili, araşdırılması da bunu deməyə əsas verir. Onların özünü qiymətləndirməsi çox aşağıdır. Bu uşaqlar, orta statistik cəmiyyətə nisbətən, “öz” mühitinə daha yaxşı uyğunlaşırlar. Təkəbbürlü görünsələr də, onlar olduqca həssasdır, qarşı tərəfin azacıq təzyiqindən tez “sınırlar”. Onları yaşam uğrunda mübarizədə, problemləri dərk etmədən belə “problemlər koması (topası)” adlandırmaq olar. Böyüklərin diqqət və qayğısından məhrum olduqlarından çox zaman aqressiv olurlar. Emosional istiliyə, bağlılığa olan tələbatlarının ödənilməməsi bu uşaqların sosial-

---

[21] Əliyev, M.N. Sosial xidmət sosial təminat hüququnun institutu kimi /Dərs vəsaiti/ M.Əliyev. – Bakı: Təknur, - 2008.- 191 c.

psixoloji vəziyyətinə öz mənfi təsirini göstərir. Onların davranışı və danışıq tərzi tamamilə stereotiplərdən ibarət olur[22].

**"Valideyn himayəsindən məhrum olmuş uşaqlarla bağlı sosial siyasət sahəsində beynəlxalq təcrübə"** adlanan üçüncü paraqrafda problemlə bağlı sosial siyasət beynəlxalq təcrübə müstəvisində araşdırılır. Göstərilir ki, valideyn himayəsindən məhrum olmuş uşaqların problemlərinin həlli sahəsində beynəlxalq təcrübənin nəzərdən keçirilməsi xüsusi əhəmiyyət daşıyır. Əvvəla, bu istiqamətdə həmin ölkələrdə bir sıra qlobal təcrübə toplanmışdır. İkincisi isə, onun ölkəmizdə tətbiqi bizdə də bu əhali təbəqəsinin problemlərinin həllini yüngülləşdirmiş olardı. Təbii ki, istənilən təcrübə mexaniki deyil, şəraitə uyğun və kreativ şəkildə tətbiq edilməlidir.

Qeyd edilir ki, Qərbi Avropa və ABŞ-da valideyn himayəsindən məhrum olmuş uşaqların tərbiyəsi sisteminin inkişafı bir qədər fərqli olmuşdur. ABŞ və Qərbi Avropa ölkələrində ictimai tərbiyənin tarixini dörd mərhələyə ayırmaq olar.

I mərəhələ sosial cəhətdən qorunmuş uşaqların uşaq evlərinə, xeyriyyə müəssisələrinə, bir sözlə, onların normal inkişafı üçün daha əlverişli şəraiti olan müəssisələrə yerləşdirilməsi ilə xarakterizə olunur.

II mərhələ fəaliyyətdə olan böyük tərbiyə müəssisələrindən imtina edilməsi və "kotec" adlandırılan ailə tipli tərbiyə evlərinin yaradılması ilə xarakterizə olunur.

XX əsrin əvvəlləri - II Dünya müharibəsindən sonrakı illərə təsadüf edən III mərhələdə peşəkar ailə institutu inkişaf etməyə başlayır. Burada uşaqlar yalnız götürüldüyü ailələrdə yaşayır və patronat müddətində valideynlərin məsuliyyətini özündə ehtiva edir.

IV mərhələ XX əsrin 60-70-ci illərindən bu günə kimi olan dövrü əhatə edir ki, bu vaxt valideynlərini itirmiş uşaqların deinstitutlaşması Qərbi Avropa ölkələri və Amerikanın sosial

[22] Карушева А.В., Дети «группы риска» как особая социальная группа / А.В.Карушева, Е.В.Тремаскина // Молодой ученый. - 2016. №3, -с.1002-1004. https://moluch.ru/authors/46214/

siyasətinin aparıcı meyillərindən birinə çevrilir. Bu vaxt uşaq evləri və sığınacaqların əksəriyyəti öz fəaliyyətini, demək olar ki, dayandırdı. Fəaliyyətdə olan uşaq evlərində qalan uşaqlar isə tibbi göstəricilərinə görə ailələrdə saxlana bilməyənlərdir. Valideyn himayəsindən məhrum olmuş uşaqların böyük əksəriyyəti uşaqları övladlığa götürən ailələrdə, həmçinin peşəkar ailələrdə tərbiyə alanlardır.[23]

Dissertasiyanın birinci fəslində gəlinən əsas nəticələrin yekun xülasəsi bundan ibarətdir ki, sosial siyasət kursunun çox mühüm istiqamətlərindən biri aztəminatlı insanların, xüsusi qayğıya ehtiyacı olan təbəqələrin sosial müdafiəsinin təmin edilməsidir. Valideyn himayəsindən məhrum olmuş uşaqların problemlərinin tədqiqi bir çox illər ərzində ilk növbədə beynəlxalq və qeyri-hökumət təşkilatları, həmçinin dövlət komitələri və idarələri tərəfindən aparılır. Aparılmış tədqiqatlar göstərir ki, valideyn himayəsindən məhrum olmuş uşaqlarla aparılan iş yaradıcı bir prosesdir. Bu, həmin uşaqların həyat və fəaliyyətinin bütün tərəflərini əhatə edən elmi araşdırmaları dərinləşdirməyi, reallıqla şərtlənən xüsusiyyətləri nəzərə almağı tələb edir. Valideyn himayəsindən məhrum olmuş uşaqlarla bağlı sosial siyasətin mahiyyəti onların həssas sosial qruplar olaraq bazar iqtisadiyyatı şəraitinə uyğunlaşmasına yardım etməkdən və onların sosial müdafiəsinin daim diqqət mərkəzində saxlanılmasından ibarətdir.

İkinci fəsil **"Azərbaycan Respublikasında valideyn himayəsindən məhrum olmuş uşaqlarla bağlı dövlət siyasəti"** adlanır. Bu fəsildə ilk növbədə Azərbaycanda valideyn himayəsindən məhrum olmuş uşaqlara aid sosial siyasətin formalaşması nəzərdən keçirilir. Daha sonra, müəllif Azərbaycanda valideyn himayəsindən məhrum olmuş uşaqlara dair sosial siyasətin hüquqi əsaslarını, Azərbaycanda övladlığa uşaq götürmənin problemlərini və perspektivlərini araşdırır. Sonuncu paraqrafda uşaq müəssisələrini

---

[23] Смирнова Е. Проблемы социального сиротства в России и за рубежом: историческая справка. 2010. URL: http://nashi-deti.detskii-dom-9.ru/view_articles.php?id=10

tərk edən valideyn himayəsindən məhrum olmuş şəxslərin məşğulluq və yaşayış yeri ilə təmin edilməsi problemi öyrənilir.

**“Azərbaycanda valideyn himayəsindən məhrum olmuş uşaqlara aid sosial siyasətin formalaşması”** adlanan birinci paraqrafda Azərbaycanda valideyn himayəsindən məhrum olmuş uşaqlara aid sosial siyasətin formalaşması təsir göstərən amillər araşdırılır. Göstərilir ki, uşaq siyasətinin düzgün və səmərəli həyata keçirilməsi hər bir dövlətin mühüm strateji vəzifələrindəndir. O cümlədən dövlətimiz də bu vəzifəni layiqincə yerinə yetirməyə çalışır, ciddi səylər göstərir. Müstəqillik qazandıqdan sonra respublikamızda dövlət uşaq siyasətinin həyata keçirilməsi istiqamətində bir sıra vacib hüquqi aktlar qəbul edilmişdir [24]. Hüquqi, sekulyar dövlət quruculuğuna nail olmuş dövlətimizin gələcəyi indiki uşaqlardan birbaşa asılıdır.

**“Azərbaycanda valideyn himayəsindən məhrum olmuş uşaqlara dair sosial siyasətin hüquqi əsasları”** adlanan ikinci paraqrafda qeyd edilir ki, müstəqillik qazandıqdan sonra Azərbaycan Respublikası uşaqlarla bağlı bir sıra beynəlxalq konvensiyalara qoşulmuş, bu sahədə mühüm sənədləri imzalamışdır. Dövlət uşaq siyasətinin zəruri konturlarını tam əks etdirən əsas müddəalar araşdırılır. Göstərilir ki, uşaq hüquqlarının təminatı valideynlərin üzərinə ciddi vəzifələrin qoyulmasını diktə edir. Bu vəzifələr olmadan dövlət uşaq siyasətinin səmərəli həyata keçirilməsi və uşaqların hərtərəfli, tam bir şəxsiyyət kimi formalaşması mümkün olmazdı.

II fəslin “**Azərbaycanda övladlığa uşaq götürmə: problemlər və perspektivlər”** adlanan üçüncü paraqrafında göstərilir ki, uşaqların hüquqlarının qorunması sahəsində övladlığa götürmə institutu diqqət edilməsi vacib olan əsas sahələrdən biridir. Bu institut həm övladlığa verən, həm övladlığa götürən, həm tərbiyə müəssisələri, həm də dövlət qurumlarının qarşısında müxtəlif hüquq və vəzifələr qoyur, uşaqların mənafelərini üstün tutaraq onlar üçün

[24] Rəcəbli, H. Azərbaycan Respublikasının sosial müdafiə sistemi / H.Rəcəbli, - Ali məktəblər üçün dərs vəsaiti. -.Bakı: “MBM”, - 2012, - 408 s.

vacib institut olduğunu sübut etmək istiqamətində səylərini optimallaşdırmağa çalışır. Övladlığa götürmə heç də sadə, yəni valideynlər arasında baş tutmuş razılıqla və ya müvafiq müəssisələrin razılığı ilə uşağın övladlığa götürülməsindən ibarət olmayıb, uşaq hüquqlarının həyata keçirilməsini, onların düzgün tərbiyə olunmasına, yüksək mənəviyyatlı, hərtərəfli şəxsiyyət kimi formalaşmasına şərait yaradılmasını, uşağın zəruri maddi və məişət şəraitində böyüyüb tərbiyə olunmasının, mütərəqqi tələblər əsasında təhsil almasının, layiqli vətəndaş kimi formalaşmasının təmin edilməsinə yönələn Azərbaycan Respublikasının dövlət siyasətinin əsas istiqamətlərindən biri olduğunu göstərir[25].

**"Uşaq müəssisələrini tərk edən valideyn himayəsindən məhrum olmuş şəxslərin məşğulluq və yaşayış yeri ilə təmin edilməsi problemi"** adlanan dördüncü paraqrafda göstərilir ki, internatlarda olan və ya internatları tərk edən valideyn himayəsindən məhrum olmuş uşaq və gənclərin məşğulluğunun təmin olunması və əmək fəaliyyətinin təşkili günümüzün ən aktual problemlərindəndir. Bu kateqoryadan olan şəxslərin məşğulluğunun təmin olunması və əmək fəaliyyətinin təşkili üçün qanunvericilikdə bir sıra təminatlar və güzəştlər nəzərdə tutulmuşdur. Bu cür təminatlar və güzəştlər "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" qanunun 8-ci maddəsində, "Məşğulluq haqqında" Azərbaycan Respublikasının Qanununda və

---

[25] Həsənov, R. Sosial siyasət / R.Həsənov, -Bakı, "AVROPA" nəşriyyatı, -2016, -310 s.; Наджафова, Н.Х. Усыновление детей как одно из основных направлений социальной политики Азербайджана. // Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Şəxsiyyət, Cəmiyyət və Dövlət XXI əsrdə: Qlobal Çağırışlar və İnkişaf Perspektivləri" mövzusunda Sosial elmlər üzrə Beynəlxalq fənlərarası elmi konfrans, / IISCSS 2023 –Bakı, - 2023, - s.186-187.; Najafova, N.X. // Adoption as a direction of Azerbaijan's social policy regarding children // Глобальные процессы и новые форматы многостороннего сотрудничества в науке и образовании. Сборник научных трудов, Казань, 2024, с.103-107.

Azərbaycan Respublikası Prezidentinin və Nazirlər Kabinetinin təsdiq etdiyi bir sıra dövlət proqramlarında nəzərdə tutulmuşdur[26].

Dissertasiyanın ikinci fəslində gəlinən əsas nəticələrin ümumi xülasəsi bundan ibarətdir ki, Azərbaycanda uşaq müdafiə sisteminin əsas istiqamətlərini onların hüquqlarının hərtərəfli təmin edilməsi, müvafiq dövlət proqramlarının və inkişaf konsepsiyalarının həyata keçirilməsi, bərabər təhsil, səhiyyə və sosial imkanların yaradılması, zəruri maddi və məişət şəraitində böyüyüb tərbiyə olunması, bu sahədə milli qanunvericiliyin təkmilləşdirilməsi və s. təşkil edir. İnternatlarda olan və ya internatları tərk edən valideyn himayəsindən məhrum olmuş uşaq və gənclərin məşğulluğunun təmin olunması və əmək fəaliyyətinin təşkili, yaşayış sahəsi ilə təmin olunması da dövlətin diqqət mərkəzində olan məsələlərdəndir.

**“Azərbaycanda valideyn himayəsindən məhrum olmuş uşaqlara vətəndaş cəmiyyətinin qayğısı, onların cəmiyyətdə yeri və rolu”** adlanan üçüncü, sonuncu fəsildə başlıca diqqət iki məsələ üzərində cəmləşdirilir: a) Azərbaycanda valideyn himayəsindən məhrum olmuş uşaqlarla bağlı ictimai birliklərin fəaliyyətinin öyrənilməsi; b) valideyn himayəsindən məhrum olmuş uşaqların cəmiyyətin fəal üzvləri kimi formalaşması empirik sosioloji tədqiqatlar kontekstində araşdırılması.

Bu fəslin **“Azərbaycanda valideyn himayəsindən məhrum olmuş uşaqlarla bağlı ictimai birliklərin fəaliyyətin”** adlanan birinci paraqrafında ölkəmizdə valideyn himayəsindən məhrum olmuş uşaqlarla bağlı ictimai birliklərin fəaliyyəti nəzərdən keçirilir və onların fəaliyyəti ilə bağlı statistik məlumatlar təhlil edilir. Göstərilir ki, ölkəmizdə dövlət müəssisələri lazımi qayğını təmin etmək üçün cox iş görürlər, lakin ev istisini və qayğıkeş valideynlərin nəvazişini heç bir şey əvəz edə bilməz. Bu gün başlıca məqsəd uşaqların mümkün dərəcədə öz bioloji valideynləri ilə bir yerdə qalmasını təmin etməkdir. Bu mümkün olmadığı təqdirdə, himayədar ailə qayğısı və övladlığa götürmə optimal alternativlər kimi nəzərdən

[26] Rəcəbli, H. Azərbaycan Respublikasının sosial müdafiə sistemi / H.Rəcəbli, - Ali məktəblər üçün dərs vəsaiti. -.Bakı: “MBM”, - 2012, - 408 s.

keçirilir. Lakin bəzi hallarda uşaqlar ağır formada əqli problemlərdən və fiziki əlillikdən əziyyət çəkir, bir çox xüsusi xidmətlərə ehtiyac duyurlar. Belə olduğu halda ailə yönümlü mühiti təmin edən, kiçik sayda uşaqları əhatə edən evlərin yaradılması ən münasib variantdır.

Dissertasiyanın sonuncu paraqrafı **“Valideyn himayəsindən məhrum olmuş uşaqların cəmiyyətin fəal üzvləri kimi formalaşması empirik sosioloji tədqiqatlar kontekstində”** adlanır. Problemlə bağlı tərəfimizdən 2020-ci ilin yazında anket sorğusu keçirilmişdir. Sorğunun əsas aspektlərinə uşaqların uşaq evinə düşməsi səbəbləri və uşaqlarından imtina edən valideynlərə münasibət; uşaq evlərinin kimsəsiz uşaqların bir şəxsiyyət kimi formalaşmasında rolu; uşaq evlərinin məzunlarına dövlətin hansı yardımları göstərməsinin zəruriliyi; valideyn himayəsindən məhrum olmuş uşaqların psixoloji durumları; uşaq evlərinin məzunlarının gələcək həyatları; onlar haqqında cəmiyyətdə formalaşmış ümumi rəy və sosiodemoqrafik göstəricilər daxil edilmişdir. Bu indikatorlar vasitəsilə valideyn himayəsindən məhrum olmuş uşaqların real vəziyyəti və cəmiyyətdə onlara olan münasibət tədqiq edilmişdir. Əldə olunan məlumatlar interpretasiya olunaraq valideyn himayəsindən məhrum olmuş uşaqlarla bağlı bir çox kompleks məsələləri təhlil etməyə imkan vermişdir.

Həmçinin hazırki tədqiqat çərçivəsində müasir Azərbaycan cəmiyyətində valideyn himayəsindən məhrum olmuş uşaqlarla bağlı aparılan sosial siyasətin əsas istiqamətlərini tədqiq etmək üçün 2022-ci ilin yanvar ayında tərəfimizdən ekspert sorğusu keçirilmişdir. Sorğuda bu sahədə çalışan 18 nəfər mütəxəssis iştirak etmişdir. Onların sırasında sosial iş və sosiologiya fənlərini tədris edən Respublikanın bir sıra ali məktəb müəllimləri; uşaq problemləri ilə məşğul olan bir sıra dövlət ixtisaslaşmış müəssisələrinin mütəxəssisləri və uşaq problemləri üzrə ictimai birliklərin nümayəndələri olmuşlar. Apardığımız tədqiqat nəticələrinə əsaslanaraq valideyn himayəsindən məhrum olmuş uşaqların cəmiyyətdə vəziyyətinin yaxşılaşdırılması üçün bir sıra təkliflər irəli sürülmüşdür.

1. Uşaq evləri və internat müəssisələri valideyn himayəsindən məhrum uşaqların yaşaması üçün münasib yer deyildir. Bir çox qabaqcıl, inkişaf etmiş ölkələrdə olduğu kimi Azərbaycan Respublikasında da valideyn himayəsindən məhrum olmuş uşaqların mümkün qədər qısa müddət ərzində foster ailələrdə yerləşdirilməsi məqsədəuyğundur. Əgər bioloji ailələri varsa, onda öz ailələrində yerləşdirilməsi münasibdir. Ailənin yaşayış şəraiti uşağın qalması üçün münasib deyilsə, alternativ qayğı proqramından faydalanmaq lazımdır.

2. Valideynlərin sosial rifahının aşağı olduğu və uşağa baxmaqda çətinliyə səbəb olan bu kateqoriya ailələrə dövlət dəstəyinin kifayət dərəcədə artırılmasının vacib olduğunu hesab edirik.

3. Valideyn himayəsindən məhrum uşaqlar uşaq evinin tərk etdikdən sonra ağır, çətin və əzablı-əziyyətli bir həyat yaşayırlar. Zənnimizcə, hazırki vəziyyətdə dövlət uşaq evlərinin məzunlarını iş və yaşayış şəraiti ilə təmin etməlidir ki, onlar cəmiyyət üçün faydalı şəxsə çevrilsinlər.

4. Valideyn himayəsindən məhrum uşaqlarla ciddi şəkildə uzun zaman psixo-sosial reabilitasiya tədbirləri görülməlidir. Burada əsas yük müvafiq dövlət orqanlarının, QHT-lərin və hüquqi, psixoloji və sosial iş mərkəzlərinin üzərinə düşür.

5. Dövlət uşaq müəssisələrində qalan uşaqların yüksək səviyyədə təhsil alması üçün əlindən gələni etməli, bura QHT-ləri, müxtəlif mərkəzləri, ictimaiyyəti və d. cəlb etməlidir.

Fikrimizcə, bu təkliflərin yerinə yetirilməsi cəmiyyətdə valideyn himayəsindən məhrum olmuş uşaqlara qarşı neqativ yanaşmanı xeyli aradan qaldırmış olardı.

Dissertasiyanın sonuncu, üçüncü fəslində gəlinən əsas nəticələrin ümumi xülasəsi bundan ibarətdir ki, valideyn himayəsindən məhrum olmuş uşaqlara qayğı göstərilməsində dövlət və yerli idarəetmə orqanları, uşaq müəssisələri ilə yanaşı vətəndaş cəmiyyətinin əsas elementlərindən olan qeyri-hökumət təşkilatlarının

(istər beynəlxalq, istərsə də yerli), ictimai birliklərin fəaliyyəti də mühüm əhəmiyyət kəsb edir[27].

Tədqiqatın yekunlaşdırılmasından əldə edilən qənaətlər belədir:

1. Müxtəlif cəmiyyətlərdə həm konkret fərdlərə, həm də müxtəlif sosial qruplara yönəlmiş, real vəziyyəti obyektivliklə araşdıran və qiymətləndirən, elmi əsaslarla işlənib hazırlanmış sosial siyasətə ehtiyac vardır. Sosial siyasətin məqsədi bu və ya digər cəmiyyəti təşkil edən siniflərin, sosial qrupların, sosial təbəqələrin (stratların), milli və ya digər etnik birliklərin, dil qruplarının, konfessional qrupların tərəqqisi, habelə insanın inkişafıdır.

2. Əhalinin həssas qruplarına (uşaqlara, yaşlılara, əlillərə, imkansızlara və b.) xüsusi diqqət və qayğı göstərilməsi, onların sosial müdafiəsinin həyata keçirilməsi sosial siyasətin çox mühüm tərkib hissəsi və inkişaf istiqamətidir. Uşaqların qorunması, sağlam böyüməsi və cəmiyyətin yetkin üzvü kimi formalaşması çoxaspektli fəaliyyət tələb edir. Uşaqların fiziki və əqli cəhətdən tam formalaşmaması, valideynlərindən, ailənin yaşlı üzvlərindən, cəmiyyətin digər üzvlərindən asılı olması, yetərli səviyyədə fəaliyyət göstərə bilməməsi, əməkqabiliyyətli yaşda olmaması, mənfi təsirlərə daha həssas münasibət bəsləməsi və s. onları paritet istiqamətli sosial siyasətdə xüsusi əhali kateqoriyası kimi səciyyələndirməyə imkan verir.

3. Azərbaycanda uşaqlarla bağlı qanunvericilik formalaşsa da, müəyyən boşluqlar qalmaqdadır. Bura valideyn məsuliyyəti ilə bağlı qanunlara dəyişikliklərin edilməsi aid edilə bilər. Belə ki, qanunvericilikdə valideynlərə qarşı sərt tədbirlər nəzərdə tutulmadığı üçün küçələrdən yığılıb ailələrə verilən uşaqlar bir müddət sonra yenidən küçə həyatına qayıdırlar.

4. Uşaq müəssisələri ilə bağlı iki əsas məsələyə diqqət yetirilməlidir: 1) himayə və tərbiyə formalarına əsaslı dövlət nəzarəti

---

[27] Nəcəfova, N. Valideyn himayəsindən məhrum olmuş uşaqların cəmiyyətin fəal üzvləri kimi formalaşması sosioloji tədqiqat kontekstində // - AMEA. Elmi əsərlər. Beynəlxalq elmi-nəzəri jurnal, - Bakı, - 2019. № 1, - s.103-110.

və 2) dövlət, uşaq müəssisəsi və valideyn himayəsindən məhrum olmuş uşaqlar arasındakı qarşılıqlı münasibətlərin hüquqi cəhətdən düzgün idarə olunması.

5. Sorğuda iştirak edən respondentlərin böyük bir qismi uşaq müəssisələrinin fəaliyyətinin dayandırılması və ya alternativ qayğı (foster ailə) ilə əvəz olunmasını mümkün hesab etsələr də bu sahədə müəyyən addımlar atılmasını vacib sayırlar (məs., bunun üçün müəyyən baza və mexanizmlərin yaradılması, bununla bağlı maliyyə və maarifləndirmə problemlərinin həll olunması, hazırda foster ailələrin ölkədə mövcud olmaması və s.).Bu məqsədlə ölkədə foster ailə modelinə keçidin yaxın zamanlarda təmin edilməsi vacibdir.

6. Valideyn himayəsindən məhrum olmuş uşaqlara dair araşdırmalar göstərir ki, həm uşaqların, həm də qadınların hüquqlarının qorunması, onlara kömək istiqamətində müəyyən addımların atılması baxımından sığınacaqların vəziyyəti ciddi problem olaraq qarşıya çıxır. Bir çox hallarda zorakılığın qurbanı olan insanların, o cümlədən uşaqların pənah apardığı məkanlar yetərli səviyyədə olmurlar. Yaxşı olar ki, məişət zorakılığı qurbanları ödənişsiz əsaslarla təcili qısamüddətli və uzunmüddətli mütəxəssis xidməti ilə - hüquqi və tibbi yardım və digər sosial yardımların göstərilməsi ilə təmin olunsunlar. Bu işin sistemli şəkildə həyata keçirilməsi çox vacibdir. Respukamızda uşaqların hüquqlarının müdafiəsinin kompleks şəkildə təmin olunmasına yönələn məsələlər "Azərbaycan Respublikasının Uşaqlara dair 2020-2030-cu illər üçün Strategiyası"nda dolğun əksini tapmışdır.

7. Uşaqlarla uzunmüddətli sosial-psixoloji reabilitasiya işlərinin aparılmasına ehtiyac vardır. Bu, uşaqların fəaliyyəti ilə bağlı real vəziyyəti düzgün, obyektiv başa düşməyə və qiymətləndirməyə kömək edər, onlara təsir imkanlarının düzgün seçimini şərtləndirər, ilk vaxtlarda yarana biləcək qeyri-müəyyənliyi xeyli dərəcədə azaltmağa yardımçı olar.

8. Valideyn himayəsindən məhrum olmuş uşaqların uşaq müəssisələrinə düşmələri, orada uzun müddət qalmaları bir problemdirsə, yetkinlik yaşına çatıb uşaq müəssisələrini tərk

etdikdən sonrakı yaşantılar, harada qalmaları, hansı işlərlə məşğul olmaları daha böyük problemdir.

9. Təhsil üçün lazım olan elmentlərin çoxu indiki şəraitdə valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün təəssüf ki, əlçatan deyildir. Bu səbəbdən dövlət və digər qurumlar tərəfindən müvafiq proqram və layihələr işlənib hazırlanmasına ehtiyac duyulur.

10. İşəgötürənlər iş yerlərinin ixtisarı ilə əlaqədar işdən azad olunmuş valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqları, habelə onların arasından olan şəxs hesab edilən işçiləri sonradan həmin müəssisədə və ya digər müəssisədə işə düzəltmək üçün öz vəsaiti hesabına zəruri yeni peşə hazırlığına daha geniş cəlb edilməli və məşğulluq haqqında qanunun 9-cu maddəsinə əsasən sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən vətəndaşlar üçün kvotanın tətbiq edilməsini gücləndirilməlidirlər.

11. Valideyn himayəsindən məhrum olmuş uşaqlarla ayrı-ayrılıqda sosial işçilərin məşğul olmasını vacib sayırıq. Bu halda başlıca məqsəd əvvəlcədən ailə ilə uşağın bir-birinə uyğunluğunu aşkarlamaq, hər iki tərəfin qərarlaşacaq yeni mühitdə özünü necə aparacığını müəyyən etməkdir.

Dissertasiyanın **“Nəticə”** hissəsində tədqiqata yekun vurulmuş, tədqiqatın fəsillərində əldə edilmiş elmi-nəzəri müddəalar ümumiləşdirilmiş, elmi yenilik məqamları, bir sıra təklif və tövsiyələr verilmişdir.

Dissertasiyanın **“Əlavə”** hissəsində kütləvi anket sorğusu və ekspert (tədqiqat instrumentarisi) sorğusunun mətni təqdim olunmuşdur.

**Dissertasiyanın əsas məzmunu müəllifin çap olunmuş aşağıdakı tezis və məqalələrində öz əksini tapmışdır:**

1. Azərbaycanda uşaq hüquqlarının müdafiəsi və kimsəsiz uşaqlara qayğının təşkili // Təhsil, şəxsiyyət və cəmiyyət” Bakı Dövlət Universitetinin yaradılmasının 95-ci ildönümünə həsr edilmiş Respublika elmi-praktik konfransının materialları, Bakı, 2014, s.24-28.
2. Valideyn himayəsindən məhrum olmuş uşaqlar problemi sosial iş kontekstində // Bakı, “Bakı Universitetinin xəbərləri” Sosial-Siyasi elmlər seriyası, 2015. Buraxılış 1-2, s.118-125.
3. Работа с детьми, оставшимися без попечения родителей в Азербайджане // Одесса, Научно-практический журнал «Актуальные проблемы философии и социологии», 2016. Выпуск 10, с.91-95.
4. Azərbaycanda de-institusionallaşma prosesinin həyata keçirilməsi mexanizmləri // Azərbaycan Respublikası Təhsil Nazirliyinin Doktorantların və gənc tədqiqatçıların XXI Respublika Elmi konfransının materialları, Bakı, 2017, s.44-46.
5. Valideyn himayəsindən məhrum olmuş uşaqların cəmiyyətin fəal üzvləri kimi formalaşması sosioloji tədqiqat kontekstində // Bakı, AMEA. Elmi əsərlər. Beynəlxalq elmi-nəzəri jurnal, 2019. № 1, s.103-110.
6. Valideyn himayəsindən məhrum olmuş uşaqların sosiallaşması problemi // Bakı: Sivilizasiya jurnalı, 2021. Cild 10, № 1, s. 73 - 83.
7. Проблема беспризорных детей и пути ее исследования // IV Итоговая международная научно-практическая конференция «Интеграция мировых научных процессов как основа общественного прогресса». Система знаний в вопросах науки и образования. Сборник научных трудов, Казань, 2021, с. 162-165
8. Социальная защита детей, лишенных родительской опеки // KANT: Social science & humanities, Издательство СТАВРОЛИТ, 2022. №1(9), с.88-95.

9. Uşaq evlərinin məzunları ilə bağlı aparılan sosial siyasətin empirik tədqiqi // Sosial tədqiqatlar, Bakı, 2023, s.168-176.
10. Усыновление детей как одно из основных направлений социальной политики Азербайджана // Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş ”Şəxsiyyət, Cəmiyyət və Dövlət XXI əsrdə: Qlobal Çağırışlar və İnkişaf Perspektivləri” mövzusunda Sosial elmlər üzrə Beynəlxalq fənlərarası elmi konfrans / IISCSS 2023 – Tezislər kitabı, Bakı, 2023, s.186-187.
11. Adoption as a direction of Azerbaijan's social policy regarding children // Глобальные процессы и новые форматы многостороннего сотрудничества в науке и образовании. Сборник научных трудов, Казань, 2024, с.103-107.

Dissertasiyanın müdafiəsi 30 may 2025-ci il tarixində saat 14:00 Bakı Dövlət Universitetində fəaliyyət göstərən BFD 4.25 Birdəfəlik Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ1148. Bakı şəhəri, akademik Zahid Xəlilov küçəsi, 23.

Dissertasiya ilə Bakı Dövlət Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyaları Bakı Dövlət Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 30 aprel 2025-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 15.04.2025

Kağızın formatı: A5

Həcm: 41842

Tiraj: 100